# Dastana dönən tarix

## Hər kəsin yaddaşında əbədi həkk olunmuş 44 günlük Vətən müharibəsi…

**Bu müqəddəs savaşda qazanılan şanlı qələbə tariximizə qızıl hərflərlə yazıldı. Bu zəfəri bizə yaşadan müqəddəs şəhidlərimizin, qazilərimizin qəhrəmanlığı, əzmlə, fədakarcasına, istiqrarlı şəkildə mücadiləsi heç vaxt unudulmayacaq.**

Həm ön cəbhədə, həm də arxa cəbhədə hər bir vətəndaşımızın dəmir yumruq altında birliyi, dəstəyi bütün dünyanı heyrətə gətirdi. Bəli, Azərbaycan Ordusu yeni tarix yazdı. Bu elə bir zəfər oldu ki, hələ uzun illər nəinki regionda, dünyanın bir çox ölkəsində bu qələbədən danışacaq, daha dərindən araşdıracaqlar.

Ordumuzun qəhrəman əsgərləri Ali Baş Komandan İlham Əliyevlə birgə savaşırdı. Siyasət meydanında hər kəsin cavabını layiqli şəkildə verən, qətiyyətli çıxışları ilə, göstərdiyi faktlarla hamını susduran cənab Prezident hər müsahibəsində, çıxışında bütün tarixi faktlara aydınlıq gətirirdi. İnformasiya savaşında da qalib gəlməyimiz üçün əlindən gələni edən Azərbaycan Respublikasının Prezidenti hazırcavablığı, yüksək intellekti ilə dünya mediasına müsahibələrində də nümunə oldu.

İlham Əliyevin rəhbərliyi altında ordumuz maddi-texniki bazasını elə möhkəmləndirmişdi ki, bu gün dünyanın ən güclü 50 ordusundan birinə sahibik. Bu faktı təkcə biz yox, hərbi tədqiqat mərkəzləri də təsdiqləyib. Dövlət başçısı təkcə ordunun sursatlarla təminatına yox, hərbçilərin məişət problemlərinin həllinə də diqqətlə yanaşaraq onların həll olunması üçün lazımi qurumlara tapşırıqlarını vermişdir. Yüzlərlə hərbçi mənzillərlə təmin olunmuşdur.

Dövlət başçısı ilə birlikdə Birinci vitse-prezident Mehriban Əliyevanın da şəhidlərə, onların ailələrinə qayğısı, dəstəyi qürurvericidir. Hələ o, Aprel döyüşlərindən etibarən daim cəbhədə sağlamlığını itirən qazilərimizə xüsusi diqqət və qayğı ilə yanaşmış, Heydər Əliyev Fondunda yaradılan işçi qrupu ilə birlikdə əsgər və zabitlərlə görüşlər keçirmiş, hərbçilərimiz üçün uyğun protezlərin gətizdirilməsinə nail olmuşdur. Bu layihə çərçivəsində protezlərlə təmin olunan 100-dən çox Qarabağ müharibəsi əlili artıq aktiv həyata qayıdaraq əmək fəaliyyətini davam etdirir.

Qarabağ Azərbaycandır! İndi bu cümləni işğaldan azad olunmuş torpaqlarımızda, öz yurdumuzda deyirik. O torpaqların azadlığı uğrunda canından, qanından keçmiş bütün şəhidlərimizə Allah rəhmət eləsin. Qəhrəmanlar heç vaxt unudulmur. J.Lakorderin fikridir: "Azadlıq uğrunda hər cür müharibə müqəddəsdir, işğalçılıq isə lənətə layiqdir".

Biz işğalçılıq yox, torpaqlarımızın azadlığı uğrunda mübarizə apardıq və qələbə qazandıq. Eşq olsun Ali Baş Komandana, Azərbaycan Ordusuna, Azərbaycan xalqına!

***Tərlan NÜSRƏTOV,***
***İmişli Rayon Məhkəməsinin hakimi***

Azərbaycan.- 2021.- 12 oktyabr.- S.9.